**Elnur Qara oğlu ALLAHVERDİYEV**
Azərbaycan Kooperasiya Universitetinin dosenti,
iqtisad üzrə fəlsəfə doktoru

# AZƏRBAYCANDA KƏND TƏSƏRRÜFATININ İNKİŞAFININ QANUNVERİCİLİK MƏSƏLƏLƏRİ VƏ İQTİSADİ-TƏŞKİLATİ MEXANİZMLƏRİ

**Xülasə**

*Tədqiqatın məqsədi* – Azərbaycanda kənd təsərrüfatının inkişafının qanunvericilik məsələləri və iqtisadi-təşkilati mexanizmlərin araşdırılması və təkmilləşdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsidir. Kənd təsərrüfatının müasir dövrün tələblərinə uyğun şəkildə inkişaf etdirilməsi üçün qanunvericilik aktlarının yenilənməsinə ehtiyacın olduğu əsaslandırılmışdır. Yeni transformasiyalardan irəli gələn tələbləri ödəmək üçün kənd təsərrüfatının hazırkı mövcud olan iqtisadi-təşkilati mexanizmlərinin təkmilləşdirilməsinin vacibliyi elmi arqumentlərlə verilmişdir.

*Tədqiqatın metodu* – formasında ilk növbədə bir qrup elmi metodlardan, o cümlədən təhlil, sintez, müqayisə və ümumiləşdirmə metodlarından istifadə edilmişdir. Bunlarla bərabər, ölkəmizin kənd təsərrüfatı sahələrinin inkişafında qanunvericiliyin rolu, iqtisadi-təşkilati mexanizmlərin əhəmiyyətinə dair müxtəlif tədqiqatçıların elmi əsərlərində verilən fikirlərə də istinadlar olunmuşdur.

*Tədqiqatın nəticələri* – hazırkı dövrdə məqalədə əldə olunmuş elmi-praktiki nəticələrdən Azərbaycanda kənd təsərrüfatının inkişafında qanunvericiliyin və iqtisadi-təşkilati mexanizmlərin təkmilləşdirilməsi üzrə tədbirlərin hazırlanmasında faydalı ola bilməsi ilə izah olunur.

**Açar sözlər**: Azərbaycan, kənd təsərrüfatı, qanunvericilik məsələləri, iqtisadi-təşkilati mexanizmlər, kənd təsərrüfatının inkişaf problemləri, qanunvericiliyin təkmilləşdirilməsi, iqtisadi-təşkilati mexanizmlərin səmərəlilik problemləri.

**JEL:** Q00; Q10; O13; J43; P48
**UOT**: 338.43
**DOI:** https://doi.org/ 10.54414/ILOI9562

## Giriş

Azərbaycanda kənd təsərrüfatının xüsusiyyətləri bu sahədə iqtisadi münasibətlərin tənzimlənməsinin konkret forma və mexanizmlərinin zəruriliyini obyektiv şəkildə müəyyənləşdirir. Bu münasibətlər, ilk növbədə, təkcə kənd təsərrüfatı məhsullarının deyil, habelə torpağın və heyvanlar aləminin məhsuldar gücündən istifadə əsasında kənd təsərrüfatı sisteminin özünəməxsus xüsusiyyətlərinin təkrar istehsalını təmin etməlidir. İkincisi, istehsal olunan kənd təsərrüfatı məhsulları təkcə kəmiyyətcə deyil, struktur və keyfiyyət baxımından da əhalinin tələbatını ödəməlidir. Bu iki vəzifənin üzvi əlaqəsi avtomatik olaraq əldə edilə bilməz, çünki kənd təsərrüfatının xüsusiyyətlərinin təkrar istehsalı üçün şərait və imkanlar və əhalinin ehtiyacları xeyli dərəcədə fərqlənə bilər. Deməli, cəmiyyətin tələbatının ödənilməsi maraqları naminə kənd təsərrüfatı potensialından rasional istifadəni nəzərə almaqla həmin sahə istehsalının davamlı inkişafının tənzimlənməsi zərurəti dövlət və regional səviyyədə əsas vəzifədir ki, idarəetmənin təşkilati-iqtisadi mexanizmi bu vəzifənin reallaşdırılmasına kömək edə bilər. Bu kimi vəzifələrin həllinin aktuallığını nəzərə alaraq Azərbaycanda kənd təsərrüfatının yaradılmasının qanunvericilik bazası, iqtisadi – təşkilati mexanizmləri və fəaliyyət proseslərinin təhlilinin aparılmasını zəruri hesab edirik.

## Azərbaycanda kənd təsərrüfatının inkişafı kontekstində qanunvericiliyin və mövcud iqtisadi-təşkilati mexanizmlərin tədqiqi

Məlumdur ki, müstəqil Azərbaycan iqtisadiyyatı artıq sürətlə inkişaf edən dinamik ölkəyə çevrilib. ÜDM-in böyük hissəsi əsasən özəl sektorun payına düşür ki, bu da ölkədə aparılan iqtisadi is-

lahatların müsbət nəticələr verdiyindən xəbər verir. Kənd təsərrüfatında aparılan islahatlar əhalinin ərzaq məhsulları ilə təminatında böyük nailiyyətlərin əldə olunmasına səbəb olmuş, kənd təsərrüfatı məhsulları istehsalı sahəsində müsbət nəticələr əldə edilmişdir. Respublikanın kənd təsərrüfatında istehsal strukturunun müasirləşdirilməsinə yönəlmiş islahatların reallaşdırılması ölkəyə Azərbaycanın Ümummilli Lideri H.Əliyev tərəfindən rəhbərlik olunmağa başladığı 1993-cü ildən başlanır. Bu məsələ ümummilli liderin daim diqqət mərkəzində olub və bu istiqamətdə məqsədyönlü tədbirlər görüb. İqtisadi və xüsusilə aqrar islahatların bir tərəfdən mürəkkəbliyi, digər tərəfdən də məsuliyyəti nəzərə alınmaqla, ardıcıl tədbirlərin görülməsi ilə eyni vaxtda dünya təcrübəsi, xüsusən də inkişaf etmiş kənd təsərrüfatı ölkələrinin təcrübəsi öyrənilmişdir. Bu islahatların səmərəli olması üçün tədqiqatlar aparılmış, qanun layihələrinin hazırlanması üçün müvafiq komissiyalar yaradılmışdır [1, s.29-30]. Hazırda bu islahatlar 2003-cü ildən ölkəyə rəhbərlik etməyə başlamış İlham Əliyev tərəfindən məqsədyönlü şəkildə və uğurla davam etdirilir, kənd təsərrüfatının inkişaf etdirilməsi ilə bağlı müxtəlif tipli qanunvericilik aktları, normativ-hüquqi xarakterli sənədlər hazırlanır, təsdiq edilir və uğurla reallaşdırılır. Məsələn, kənd təsərrüfatının inkişafı məqsədilə "Ailə kəndli təsərrüfatı haqqında" (2005), "Ekoloji təmiz kənd təsərrüfatı haqqında" (2008), "Kənd təsərrüfatı kooperasiyası haqqında" (2016), "Aqrar sığorta haqqında" (2019) və s. qanunlar və digər normativ hüquqi aktlar, dövlət proqramları, strateji yol xəritəsi təsdiq edilmiş və uğurla reallaşdırılmış və bu sahədə işlər davam etdirilir.

Kənd təsərrüfatının inkişafı haqqında qanunvericilik aktlarına uyğun olaraq, dövlət kənd təsərrüfatı siyasətinin əsas məqsədləri aşağıdakılardır: 1) ölkənin kənd təsərrüfatı istehsalçıları və onların məhsullarının rəqabət qabiliyyətinin artırılması, ərzaq məhsullarının keyfiyyətinin təmin edilməsi; 2) kənd yerlərinin davamlı inkişafının, kənd əhalisinin məşğulluğunun təmin edilməsi, onların həyat səviyyəsinin yüksəldilməsi, o cümlədən kənd təsərrüfatı ilə məşğul olan işçilərin əməyinin həvəsləndirilməsi; 3) kənd təsərrüfatı ehtiyaclarının ödənilməsi məqsədilə istifadə olunan təbii ehtiyatların qorunması və təkrar istehsalı; 4) kənd təsərrüfatı məhsulları, xammal və ərzaq məhsulları üçün səmərəli fəaliyyət göstərən bazarın formalaşdırılması, kənd təsərrüfatı istehsalçılarının gəlirliliyinin artırılması və bu bazarın infrastrukturunun inkişafı; 5) əlverişli investisiya mühitinin yaradılması və kənd təsərrüfatına investisiyaların həcminin artırılması; 6) kənd təsərrüfatı məhsullarının, xammalın qiymət indeksinin və kənd təsərrüfatı məhsulları istehsalçılarının istifadə etdiyi sənaye məhsullarının qiymət indeksinin monitorinqi və bu qiymət indekslərinin paritetinin saxlanılması.

Dövlətin kənd təsərrüfatı sektorunu tənzimlədiyi iqtisadi alətlərə daxildir: kreditlər; vergilər; büdcə vəsaitləri; sığorta; qiymətlər; kənd təsərrüfatı məhsullarının, xammalın və ərzaq məhsullarının ixracına və idxalına gömrük rüsumları və s. Azərbaycanda kənd təsərrüfatının inkişafı üçün bir sıra dövlət proqramları qəbul edilmişdir ki, bu proqramların əsas məqsədləri bunlardır: ölkənin ərzaq müstəqilliyinin təmin edilməsi; ət, süd, tərəvəzlər, toxumluq kartof və meyvə-giləmeyvə məhsulları ilə bağlı sürətlənmiş idxal əvəzlənməsi; ölkənin kənd təsərrüfatı məhsullarının daxili və xarici bazarlarda rəqabət qabiliyyətinin artırılması; ixracyönümlü əmtəə bölgüsü infrastrukturunun yaradılması; kənd təsərrüfatı məhsullarının məqsədli bazarlara çıxışını təmin etmək üçün ticarət maneələrinin aradan qaldırılması; kənd təsərrüfatı sektoru tərəfindən istehsal olunmuş məhsulların bazarlara çıxarılması sisteminin yaradılması və təkmilləşdirilməsi.

Hazırda kənd təsərrüfatı məhsullarının istehsalı və emalı proseslərini inkişaf etdirmək etdirmək baxımından hazırlanan ən önəmli sənədlərdən biri strateji yol xəritəsidir. Məlumdur ki, kənd təsərrüfatı məhsulları yığıldıqdan sonrakı mərhələlərdə yarana biləcək itkilərin azaldılması, keyfiyyətin yüksəldilməsi və ən əsası isə kənd təsərrüfatı istehsalçılarının bazara çıxış imkanlarının artırılması məqsədilə zəruri şəraitin yaxşılaşdırılması üçün bazar infrastrukturları təkmilləşdirilməlidir. Mövcud bazar infrastrukturları yerli kənd təsərrüfatı istehsalçılarının əlverişli şərtlərlə pərakəndə satış şəbəkələrinə daxil olmasına müəyyən maneələr yaradır. Bazar infrastrukturlarının, əsasən də pərakəndə və topdansatış şəbəkələrinin yetərincə inkişaf etməməsi istehsalçı qiymətləri ilə bazar qiymətləri arasında bir neçə dəfə fərqin yaranmasına səbəb olur. Bazar

infrastrukturları inkişaf etmiş qabaqcıl dünya ölkələrində həmin şəbəkələr tələb və təklifə nəzarət, ticarət, logistika funksiyalarının reallaşdırılması, bazar məlumatlarının toplanması və paylanması üçün zəruri alət rolunu oynayır, həmçinin yüksək əlavə dəyərin yaradılmasında önəmli rol oynayır.

Strateji Yol Xəritəsi çərçivəsində müəyyənləşdirilmiş prioritet istiqamətlərdən biri kənd təsərrüfatı və ərzaq məhsulları istehsalçılarının ixrac bazarlara çıxış imkanlarının artırılması məqsədilə kompleks tədbirlərin görülməsidir. İxrac imkanlarının artırılması baxımından zəruri şərtlərdən biri, ilk öncə, bazar infrastrukturlarının inkişafı ilə bağlıdır ki, həmin infrastrukturlar ölkədə kənd təsərrüfatı və ərzaq məhsullarının xarici bazarlara çıxışında stimullaşdırıcı önəm daşıyacaqdır. Habelə, mövcud ixrac bazarlarına çıxışı genişləndirməklə bərabər, yeni ixrac bazarlarının tapılması istiqamətində kompleks dəstək tədbirlərinin görülməsinə ehtiyac var. Bütün bu məsələlərlə əlaqədar strateji yol xəritəsi çərçivəsində gələcək illərdə üç prioritet istiqamət üzrə genişmiqyaslı tədbirlərin görülməsi əsas hədəflərdəndir ki, bunlara daxildir: birinci, kənd təsərrüfatı məhsullarının satışı üzrə bazarının infrastrukturlarının inkişafı ilə bağlı tədbirlərin reallaşdırılması; ikinci, kənd təsərrüfatı məhsulları bazarının tənzimlənməsi sisteminin təkmilləşdirilməsi ilə bağlı tədbirlərin reallaşdırılması; üçüncü, kənd təsərrüfatı və emal sənayesinin ixracının təşviqi və dəstəklənməsi tədbirlərinin müəyyənləşdirilməsi. Bu zaman kənd təsərrüfatı və ərzaq məhsulları bazarlarının coğrafiyasının genişləndirilməsi, eləcə də rəqabət üstünlüyünə malik kənd təsərrüfatı istehsalçılarının məhsullarının ixracının stimullaşdırılması və dəstəklənməsi istiqamətində tədbirlər görüləcəkdir [2, s.104].

Kənd təsərrüfatının inkişafı əsasən dövlətin aqrar struktur siyasətindən asılıdır. Aqrar struktur siyasəti dedikdə, istehsal amillərinin strukturuna, istehsalın yerləşməsinə, müəssisələrin həcminə təsir göstərən bütün tədbirlər nəzərdə tutulur. Dövlətin kənd təsərrüfatı sektorunda apardığı struktur siyasəti kənd təsərrüfatı bazarının tənzimlənməsinə yönəlmiş tədbirlərin görülməsini obyektiv zərurətə çevirir. Kənd təsərrüfatı məhsulları bazarının dövlət tərəfindən tənzimlənməsi mexanizmi həmin bazarda iqtisadi münasibətlər sisteminin inkişafına yönəlmiş tədbirlərin reallaşdırılmasına imkan verir. Aqrar struktur siyasətinin ən mühüm prinsipi istehsal amillərinin optimal yerləşdirilməsi və istifadəsi məqsədi ilə kənd təsərrüfatı bazarlarının fəaliyyətinə dövlətin qarışmaması prinsipidir. Dövlət yalnız bazar mexanizmlərinin təkmil olmadığı halda və müəssisələrin bazara struktur uyğunlaşmasına mane olmayacaq şəkildə müdaxilə etməlidir. Kənd təsərrüfatının sahə strukturunun və kənd təsərrüfatı müəssisələrinin həcminin dövlət tərəfindən tənzimlənməsinə ehtiyac onun istehsal amillərinin hərəkətsizliyi ilə bağlıdır.

Struktur siyasəti kənd təsərrüfatı sahəsinin istehsal strukturunun texnologiyasının təkmilləşdirilməsi baxımından önəmlidir. Kənd təsərrüfatı müəssisələrinin istehsal strukturunu və istehsal texnologiyasını təkmilləşdirmək məqsədi ilə tövsiyə olunur: bazarın tələbatını nəzərə almaqla istehsal strukturunun optimallaşdırılması; yüksək məhsuldar avadanlıqların istifadəsi; bitkilərin becərilməsi üçün elmi əsaslandırılmış texnologiyaların tətbiqi; coğrafi mövqeyi nəzərə alaraq müəssisə ixtisasının seçimi. Bundan əlavə, idarəetmənin daha səmərəli formalarının tətbiqi, işçilərin həvəsləndirilməsinin təşkili, eləcə də daha yüksək məhsuldar avadanlıqların istifadəsi istehsal xərclərinin azaldılmasına, müəssisənin mənfəətinin və rəqabət qabiliyyətinin artmasına kömək edəcəkdir [3, s.110-111].

Azərbaycanda kənd təsərrüfatının inkişafı baxımından digər layihə və proqramlara kənd təsərrüfatı sektorunda innovativ rəqəmsal texnologiyaların tətbiqinə yönəlmiş və elektron xidmətlərin hazırlanması və tətbiqi, istehsalın və idarəetmənin avtomatlaşdırılması, dronların və digər avadanlıqların istifadəsini əhatə edən "Rəqəmsal Kənd Təsərrüfatı" layihəsi daxildir. Azərbaycanda həmin layihəyə 2021-ci ilin ilk rübündə start verilmişdir. Həmin layihənin reallaşdırılmasında əsas məqsəd bitki xəstəliklərinə və zərərvericilərə qarşı mübarizənin effektivliyini artırmaq hesabına yüksək məhsuldarlıq əldə etmək və fermer təsərrüfatlarının xərclərini optimallaşdırmaqdır [4]. Dövlət proqramları və müxtəlif layihələr kənd təsərrüfatı sənayesinin mövcud güclü tərəflərini təkmilləşdirməyə və zəif cəhətləri aradan qaldırmağa yönəlib.

2015-ci ildə Azərbaycanda dövlət tərəfindən ölkədə kənd təsərrüfatına dəstəyi gücləndirmək

və üzvi gübrələrin istehsalçılara satışına görə güzəştləri 50%-dən 70%-ə qədər artırmaq barədə qərar qəbul edib. Güzəşt məbləğinin maksimal həddi hər hektara görə 50 manatdan 100 manatadək artırılıb. Dövlət həmçinin kənd təsərrüfatı istehsalçılarına yanacaq subsidiyaları da verir. Azərbaycan böyük xam neft istehsalçısı olduğuna görə, yanacağa verilən subsidiyalar ölkənin makroiqtisadi göstəricilərinə elə bir təsir göstərmir [5, s.45].

Kənd təsərrüfatının inkişafı bunun üçün təşkilati-iqtisadi mexanizmin formalaşdırılmasını və təkmilləşdirilməsini tələb edir ki, bu da iqtisadi (qiymət, vergi, sığorta, maliyyələşdirmə və s.) və inzibati-hüquqi mexanizmlərin tətbiqini nəzərdə tutur. Təşkilati-iqtisadi mexanizm bazar iqtisadi qanunlarının fəaliyyətini, habelə bazar münasibətləri subyektlərinin, o cümlədən dövlətin qarşılıqlı fəaliyyətinin təşkilati-hüquqi əsaslarını əks etdirir. Kənd təsərrüfatı istehsalının inkişafı təşkilati-iqtisadi mexanizmin formalaşdırılması yolu ilə əsas resursların dəyəri və mövcudluğu, habelə mexanizmlər olan institusional mühit və bu mühitdə formalaşmış institutlar sistemi ilə stimullaşdırılır.

**Yeni reallıqlar nəzərə alınmaqla, Azərbaycanda kənd təsərrüfatının inkişafı ilə bağlı qanunvericiliyin yenilənməsi və iqtisadi-təşkilati mexanizmlərin təkmilləşdirilməsi istiqamətləri**

Qeyd edək ki, kənd təsərrüfatı sahəsinin inkişafı bunun üçün maliyyə-kredut mexanizminin təkmilləşdirilməsini zəruri edir. Kənd təsərrüfatının maliyyə-kredit mexanizminin formalaşması bir sıra prinsiplərə əsaslanır: ardıcıllıq, çeviklik, əlaqələndirmə, səmərəlilik, təhlükəsizlik, əks əlaqə, prioritet maliyyələşdirmə, əlçatanlıq və s. Kənd təsərrüfatının maliyyə-kredit mexanizminin formalaşması prinsipləri bir-biri ilə bağlıdır, bir-birindən asılıdır və ardıcıllıq prinsipinin üstünlüyü ilə müəyyən iyerarxiya təşkil edir. Prinsiplərin vəhdəti və onların istiqaməti maliyyə-kredit mexanizminin formalaşması və inkişafı prosesinin bütövlüyünü müəyyən edir. Həmin prinsiplərə nəzər yetirək: 1. Kənd təsərrüfatı müəssisələrinin maliyyə-kredit mexanizminin tərkib hissələrinin inkişafının əsasında ardıcıllıq prinsipi dayanır. Maliyyə-kredit mexanizminin elementlərinin inkişafının bütün mərhələlərində ardıcıllıq prinsipi dominant rol oynayır. 2. Çeviklik prinsipi şəraitə vaxtında uyğunlaşmağı təmin edir. 3. Əlaqıləndirmə prinsipi kənd təsərrüfatının maliyyə-kredit sisteminin bütün subyektlərinin hərəkətlərini və maraqlarını əlaqələndirməkdən ibarətdir. 4. Səmərəlilik prinsipi kənd təsərrüfatının maliyyə-kredit sisteminin elementlərinin həyata keçirilməsinə, aqrar sektorun iqtisadiyyatının inkişafına və ölkənin ərzaq təhlükəsizliyi siyasətinin reallaşdırılmasına kömək göstərilməsinə əsaslanır. O, həmçinin ən az və ya müəyyən miqdarda resurslardan istifadə etməklə kənd təsərrüfatının inkişafı üçün mümkün olan ən yaxşı nəticələrin əldə edilməsini nəzərdə tutur. 5. Təhlükəsizlik prinsipi kənd təsərrüfatının dəstəklənməsi və inkişafı üzrə qəbul edilmiş proqramların vaxtında və tam maliyyələşdirilməsi və onların reallaşdırılması üzrə öhdəliklərin yerinə yetirilməsi üçün respublika və regional hakimiyyət orqanlarının məsuliyyətinin müəyyənləşdirilməsini nəzərdə tutur. 6. Əks əlaqə prinsipi maliyyə-kredit mexanizminin formalaşmasının faktiki nəticələrinin onun əsas məqsədlərinə uyğunluğu barədə məlumat verməyə və onun inkişafına zəmin yaradan nəzarət və monitorinqin daha səmərəli reallaşdırılmasına imkan verir. Bu halda əsas vəzifə kənarlaşmaların dərəcəsini, istiqamətini və səbəblərini düzgün qiymətləndirməkdir. 7. Əlçatanlı prinsipi kənd təsərrüfatı istehsalçılarının mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq dövlətdən maliyyə dəstəyi alması imkanını nəzərdə tutur. 8. Maliyyələşdirmənin prioritetliyi prinsipi büdcə vəsaitlərinin bu sahəyə yönəldilməsini nəzərdə tutur [6, s.300-301].

Kənd təsərrüfatının maliyyə-kredit mexanizminin təkmilləşdirilməsində maliyyə-kredit təşkilatlarının rolunu da unutmaq olmaz. Kənd təsərrüfatı müəssisələrinin maliyyələşdirilməsi ilə məşğul olan maliyyə-kredit təşkilatları bir sıra xüsusiyyətlərə malikdir. Bu xüsusiyyətlər riskli istehsal, aşağı investisiya cəlbediciliyi, investisiyaların mövsümiliyi, ləng və natamam kapital dövriyyəsi, investisiya layihələrinin müddəti və borc mənbələrindən güclü asılılıq şəraitində formalaşır. Kənd təsərrüfatının fasiləsiz maliyyələşdirilməsinin xüsusi mənbələri yoxdur. Kənd təsərrüfatı sektorunun istehsal etdiyi məhsulların əksəriyyəti xammaldır və daşınma, satınalma, saxlama və emal tələb olunur. Bu xüsusiyyətlər

kənd təsərrüfatı müəssisələrinin davamlı maliyyələşdirilməsinə və aqrar-sənaye kompleksində maliyyə-kredit infrastrukturunun səmərəli idarə edilməsinə şərait yaradılmasını zəruri edir. Maliyyə-kredit mexanizminin təkmilləşdirilməsinin prioritet istiqaməti ondan ibarətdir ki, o, kənd təsərrüfatı subyektlərinin nəinki maliyyələşdirilməsi və kreditləşməsinə şərait yaradır, habelə sənaye, sosial, ticarət və informasiya sahələrinin inkişafı üçün maliyyə bazası yaradır. Belə ki, Azərbaycanın kənd təsərrüfatında maliyyə-kredit mexanizmindən istifadənin səmərəliliyinin və bütövlükdə həmin sahənin investisiya cəlbediciliyinin artırılması yaxın gələcək üçün strateji istiqamətlər kimi qəbul edilir. Kənd təsərrüfatının maliyyə-kredit mexanizminin təkmilləşdirilməsi üzrə tədbirlərin yekun məqsədi bu sahənin maddi-texniki bazasının yaxşılaşdırılması, gəlirliliyinin yüksəldilməsi və son nəticədə ölkənin və əhalinin təhlükəsiz ərzaq məhsulları ilə təminatının yaxşılaşdırılmasıdır.

İnvestisiyaların həcmi və strukturu kənd təsərrüfatının davamlı və tarazlı inkişafına birbaşa təsir göstərir. Bu baxımdan kənd təsərrüfatında investisiya mühitinin daha da yaxşılaşdırılması qarşıda duran əsas vəzifələrdəndir. Kənd təsərrüfatında investisiya mühitinin yaxşılaşdırılması və cəlbediciliyinin gücləndirilməsi məqsədilə investisiya fəaliyyətinin normativ-hüquqi bazasının təkmilləşdirilməsi, xüsusi mülkiyyətin mühafizəsi, mülkiyyət formasından asılı olmayaraq bütün investorlar üçün daha sağlam rəqabət mühitinin yaradılması, Azərbaycanın həmin sektorunun xarici investisiyalar üçün cəlbedici sahə kimi imicinin daha da yaxşılaşdırılması və s. istiqamətində tədbirlər reallaşdırılmalıdır [7, s.3].

Milli iqtisadiyyatın müasir inkişafı mərhələsində kənd təsərrüfatının modernləşdirilməsi zəruridir ki, bunun üçün xarici investisiyaların və qabaqcıl texnologiyaların cəlb edilməsi və bu sahədə dövlət-özəl əməkdaşlığından fəal istifadə etmək lazımdır. Bu baxımdan kənd təsərrüfatının innovativ inkişafına dövlət dəstəyinin əsas məqsədi innovativ şirkətlərin daxili və xarici bazarlarda rəqabətqabiliyyətliliyini təmin etməkdir. Bu cəhət ölkə iqtisadiyyatının təkcə kənd təsərrüfatı sektoru üçün deyil, bütün prioritet sahələrin inkişafı baxımından xüsusilə vacibdir [8, s.81].

Kənd təsərrüfatı müəssisələri tərəfindən müasir texnologiyalardan istifadə biznes proseslərinin effektiv inkişafına və avtomatlaşdırılmasına kömək edir, lazımi sənədlərin doldurulması vaxtını azaldır, alıcıların kənd təsərrüfatı məhsullarına tələb və ehtiyaclarını təhlil etməyə və proqnozlaşdırmağa imkan verir. İnnovativ texnologiyaların özünü doğrultması daxili və xarici amillərdən asılıdır, onları əvvəlcədən proqnozlaşdırmaq çox vaxt mümkün deyil və belə texnologiyaların alınması, tətbiqi və saxlanması xərcləri maliyyə investisiyaları tələb edir [9, s.101].

**Nəticə**

Beləliklə, yaxın perspektivdə kənd təsərrüfatının qanunvericilik bazasının gücləndirilməsi və iqtisadi-təşkilati mexanizmlərinin təkmilləşdirilməsi tədbirlərinin görülməsini vacib hesab edirik və bununla əlaqədar olaraq bir qrup məsələlərə diqqət yönəltmişik:

– Kənd təsərrüfatı sahəsində mövcud qanunvericilik aktlarının stimullaşdırıcı məzmununun yenilənməsi vacibdir;

– Kənd təsərrüfatı məhsulları istehsalçılarının stimullaşdırılması üçün investisiya, büdcə, kredit, vergi və sığorta tədbirləri həvəsləndirici və məqsədyönlü olmalıdır;

– Kənd təsərrüfatı istehsalının innovasiyaların inkişafına, bazar münasibətlərinin formalaşmasına həssaslığını təmin etmək lazımdır;

– Subsidiyalardan müasir texnologiyaların, elmi-texniki məhsulların alınması və tətbiqi üçün istifadə edilməlidir, həmçinin elmin, texnologiyanın, innovativ layihələrin inkişafı və s. üçün kapital qoyuluşları maliyyələşdirilməlidir;

– Mülkiyyət hüquqlarının dəqiqləşdirilməsini və qorunmasını təmin etmək üçün torpaq qanunvericiliyinin təkmilləşdirilməsi və torpaq bazarının inkişafı;

– Kənd təsərrüfatı istehsalçıları üçün regional informasiya konsaltinq sistemlərinin yaradılması və inkişafı yolu ilə informasiya asimmetriyasının azaldılması;

– Yerli istehsalın səmərəliliyini artırmaqla idxal olunan məhsulların rəqabət qabiliyyətini azalda bilən dövlət siyasətinin aləti kimi kənd təsərrüfatı proteksionizminin inkişafı;

– Kənd təsərrüfatı müəssisələrinin xarici bazarlara yönəldilməsi zamanı şaquli inteqrasiya-

nın səmərəliliyinin artırılması üçün şəraitin yaradılması, kənd təsərrüfatı müəssisələrinin regionlararası əlaqələrinin təkmilləşdirilməsi və s.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Кязимов, А.А. Особенности аграрного законодательства Азербайджанской Республики / А.А. Кязимов, М.А. Мамедов, Э.И. Ахмедова // Актуальные научные исследования в современном мире. – 2018. № 11-4(43), – с. 29-33.
2. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi: [Elektron resurs] / URL: https://www.agro.gov.az/uploads/documents/1/noMd5ao2nDJwgM-RCyTsPdDPPXLXZ2bwkk4DprYOl.pdf//.
3. Пылайкина, А.В. Развитие сельскохозяйственных предприятий: основные направления и проблемы / А. В. Пылайкина, А. А. Булгакова // Закономерности развития региональных агропродовольственных систем. – 2023. № 1, – с. 109-111.
4. Rəqəmsal Kənd Təsərrüfatı” layihəsinin əhatə dairəsi genişlənir: [Elektron resurs] / URL: https://atm.gov.az/az/news/532/reqemsal-kend-teserrufati-layihesinin-ehate-daires//.
5. Eynalov, H., Quliyev, Y. Aksoy, U., Boz, İ. Azərbaycanda orqanik kənd təsərrüfatı: Hazırkı durum və gələcək inkişaf potensialı. – Bakı, – 2018. – 106 s.
6. Туканов, М.М. Перспективы улучшения финансовой обеспеченности сельскохозяйственных предприятий Азербайджана в новых условиях / М.М. Туканов // Развитие науки и практики в глобально меняющемся мире в условиях рисков: сборник материалов IX Международной научно-практической конференции, – Москва, 28 марта 2022, – с. 297-306.
7. Əbdülhəsənov, T.T. Kənd təsərrüfatının investisiya cəlbediciliyinin artırılması istiqamətləri. İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dis. avtoreferatı./ – Bakı, 2016. – 25 s.
8. Hacıyeva, Z.E., Osmanov, İ.O. Aqrar sənaye müəssisələrinin innovativ inkişafında dövlətin rolu / Z.E. Hacıyeva, İ.O. Osmanov // Elmi Xəbərlər. Sosial və Humanitar Elmlər Bölməsi. – 2020. – cild. 16, №. 4, – s. 79-8.
9. Сабодах, И.В. Современные технологии, способствующие развитию АПК / И.В. Сабодах // Актуальные вопросы переработки и формирование качества продукции АПК: Материалы II Международной научной конференции, – Красноярск, – 15 декабря 2023, – с. 100-101.

**Эльнур Гара оглу АЛЛАХВЕРДЕВ**
Доцент Азербайджанского Университета Кооперации,
доктор философии по экономике

## ЗАКОНОДАТЕЛЬНЫЕ ВОПРОСЫ И ЭКОНОМИКО-ОРГАНИЗАЦИОННЫЕ МЕХАНИЗМЫ РАЗВИТИЯ СЕЛЬСКОГО ХОЗЯЙСТВА В АЗЕРБАЙДЖАНЕ

### Резюме

***Цель исследования*** - определить направления совершенствования законодательных вопросов и экономико-организационных механизмов развития сельского хозяйства в Азербайджане. Для развития сельского хозяйства в соответствии с требованиями современной эпохи обоснована необходимость обновления законодательных актов. Научно обоснована важность совершенствования существующих экономико-организационных механизмов сельского хозяйства с целью удовлетворения требований, вытекающих из новых экономических преобразований.

***Методы исследования*** - прежде всего, в форме метода исследования была использована группа научных методов, включающая методы анализа, синтеза, сравнения и обобщения. Наряду с ними в научных трудах различных исследователей также затрагивались вопросы роли

законодательства в развитии сельскохозяйственных отраслей нашей страны и значение экономико-организационных механизмов в этих сферах.

***Результаты исследования*** - из полученных в статье научно-практических результатов в настоящее время следует, что они могут быть полезны при подготовке мер по совершенствованию законодательства и экономико-организационных механизмов в развитии сельского хозяйства Азербайджана.

**Ключевые слова:** Азербайджан, сельское хозяйство, законодательные вопросы, экономико-организационные механизмы, проблемы развития сельского хозяйства, совершенствование законодательства, проблемы эффективности экономико-организационных механизмов.

**Elnur Gara-ALLAHVERDIEV**
Assistant professor of Azerbaijan Cooperation University,
Doctor of Philosophy in Economics,

## Legislative issues and economic-organizational mechanisms of agricultural development in Azerbaijan

### Summary

*The purpose of the research* - is to determine the direction of research and improvement of legislative issues and economic-organizational mechanisms of agricultural development in Azerbaijan. In order to develop agriculture in accordance with the requirements of the modern era, it is justified that there is a need to update the legislative acts. The importance of improving the existing economic-organizational mechanisms of agriculture in order to meet the demands arising from new transformations was given by scientific arguments.

*Research methods* - a group of scientific methods, including methods of analysis, synthesis, comparison and generalization, were used in the article. Along with these, the role of legislation in the development of the agricultural fields of our country and the importance of economic-organizational mechanisms were also referred to in the scientific works of various researchers.

*The results of the research* - it is explained that results can be useful in the preparation of measures for the improvement of legislation and economic-organizational mechanisms in the development of agriculture in Azerbaijan.

***Keywords***: Azerbaijan, agriculture, legislative issues, economic-organizational mechanisms, problems of agricultural development, improvement of legislation, efficiency problems of economic-organizational mechanisms.